unicef
for every child

# İNKLÜZİV TƏHSİL

Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır?

**İyul, 2019-cu il**






BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası əlilliyi olan hər kəsin inklüziv təhsil hüququnu təsbit edir. Bəs əslində bu nə deməkdir və onu reallaşdırmaq üçün hansı tədbirlər görülməlidir?

Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Komitə təhsillə bağlı "Ümumi Şərh" hazırlayıb. Bu sənəddə inklüziv təhsil izah edilir və onun həyata keçirilməsini təmin etmək üçün hökumətlərin atmalı olduğu addımlar ətraflı şəkildə təsvir olunur.

Bu sənəd hökumətlərə inklüziv təhsil sistemi yaratmaq üçün görə biləcəkləri tədbirlərlə bağlı istiqamət verir.

## İnklüziv təhsil nədir?

İnklüziv təhsil – kimliyindən, bacarıqlarından və ya ehtiyaclarından asılı olmayaraq, **bütün** şagirdlər üçün açıq olan, onlar üçün əlverişli şərait yaradan və onların biliklərə yiyələnməsinə dəstək göstərən təhsil sistemidir. Bunun üçün isə təlim-tədris və təhsil proqramının, məktəb binalarının, sinif otaqlarının, oyun meydançalarının, nəqliyyatın və sanitar qovşaqların bütün səviyyələrdə **bütün** uşaqlar üçün uyğun olması tələb olunur. İnklüziv təhsil bütün uşaqların eyni məktəblərdə birlikdə öyrənməsini ehtiva edir.

**Heç kəs** kənarda qoyulmamalıdır. Hər bir uşaq, o cümlədən əlilliyi olan uşaqlar inklüziv təhsil hüququna malikdir.

## İnklüziv təhsil niyə vacibdir?




- İnklüziv təhsil bütün uşaqlar– həm əlilliyi olan, həm də digər uşaqlar üçün təlim prosesini yaxşılaşdırır.
- İnklüziv təhsil anlaşmanı təşviq edir, qərəzli düşüncələri azaldır və sosial inteqrasiyanı gücləndirir.
- İnklüziv təhsil əlilliyi olan uşaqların gələcəkdə işləmək və öz icmalarına iqtisadi və sosial baxımından töhfə vermək üçün zəruri bacarıqlarla təchiz olunmasını təmin edir.

## İnklüziv təhsil əlilliyi olan uşaqların digər hüquqlarının həyata keçirilməsi ilə əlaqəlidir.

Bütün insan hüquqları bir-biri ilə əlaqəlidir. Buraya təhsil hüququ da daxildir. Digər hüquqlar təmin olunmadan səmərəli təhsilə nail olmaq mümkün deyil. Təhsil hüququ təmin olunduqda isə, digər hüquqların həyata keçirilməsinə gətirib çıxarır.

**Aşağıdakıları tələb edir:**
- Ayrı-seçkiliyə yol verilməməsi
- Uşaqların ali maraqları
- Uşağın fikrini ifadə etmək hüququ
- Zorakılıq və təhqirdən müdafiə
- İcma daxilində yaşamaq imkanı
- Hərəkət etmək imkanına dəstək
- Səhiyyə xidmətlərinin əlçatanlığı
- Abilitasiya və reabilitasiya

**İnklüziv təhsil**



**Aşağıdakıları təşviq edir:**
- İctimai həyatda iştirak
- Hüquq qabiliyyətinin həyata keçirilməsi
- İş və məşğulluq
- Adekvat yaşayış standartları

Hökumətlər inklüziv təhsil barədə uşaqların digər hüquqları ilə birlikdə düşünməlidir. O, digər hüquqlardan təcrid olunmuş şəkildə həyata keçirilə bilməz.

## İnklüziv təhsil sistemləri

İnklüziv təhsil bütün təhsil sisteminin – təhsillə bağlı qanunvericilik və siyasətin, təhsilin maliyyələşdirilməsi, inzibatçılığı, planlaşdırılması, həyata keçirilməsi və monitorinqi sistemlərinin, məktəblərin təşkili qaydasının əsaslı şəkildə dəyişməsini ehtiva edir.

## İnklüziv təhsil aşağıdakıları tələb edir:




- **Təhsil nazirliklərinin məqsədyönlü fəaliyyəti və resurslar ayırması** - sistemləri dəyişmək üçün vaxt və maliyyə tələb olunur.
- **Müəllim və şagirdlərə dəstək** - müəllimlər üçün təlim və istiqamətləndirmə, şagirdlər üçün isə təlimə mane olan əngəllərin aradan qaldırılmasına yönələn xidmətlər tələb olunur.
- **Müxtəlifliyə hörmətin və inklüziv təlimin təşviqi** - əlilliyi olan uşaqlara qarşı mənfi münasibətləri və qərəzli düşüncələri aradan qaldırmaq üçün tədbirlər görülməlidir.
- **Bütün şagirdlərdən gözləntilərin yüksək olması** - müəllimlər səylərini bütün uşaqlara yönəltməli və onların hamısına dəstək göstərməlidir
- **Təhlükəsiz və inklüziv mühitlər** - uşaqlar müəllimlərdən və ya digər uşaqların zorbalığından qorxarsa, öyrənə bilməzlər.
- **Valideynlər, əlil təşkilatları və məktəblər arasında əməkdaşlıq** - mümkün ən geniş spektrli təcrübə və biliklər inklüziv təhsil üçün faydalı olacaqdır
- **Gedişatın monitorinqi mexanizmləri** - vəziyyətin yaxşılaşıb-yaxşılaşmadığını ölçmək və yaxşılaşmadığı təqdirdə hansı dəyişikliklərin zəruri olduğunu müəyyən etmək çox vacibdir.

## İnklüziv təhsilin həyata keçirilməsi üçün təmin olunmalı şərtlər

- Ayrı-seçkiliyə son qoyulması
- Əlilliyi olan uşaqların kənarlaşdırılmasına son qoyulması
- İbtidai təhsilin və orta təhsilin əlçatanlılığı – bütün uşaqlar, o cümlədən böhran və fövqəladə vəziyyətlərlə üzləşən əlilliyi olan uşaqlar üçün yetərli sayda əlçatan və inklüziv məktəblərin olması
- Şagirdlərin öyrənməsinə şərait yaratmaq üçün praktiki dəstək və uyğunlaşdırmalar – bu, “ağlabatan uyğunlaşdırma” adlanır

- Əlilliyi olan uşaqlar üçün tələb olunan uyğunlaşdırma və dəstəyi əks etdirən fərdi təhsil planları
- Xüsusi əlillik növləri üzrə xidmətlər, məsələn, Brayl əlifbasının və ya işarə dilinin tədrisi, sinfin yenidən təşkili və əlçatan təlim materiallarının təmin edilməsi.
- Müəllimlərin inklüziv məktəblərdə fəaliyyət göstərməsi üçün adekvat şəkildə hazırlıq keçməsi

## Hökumətlərin inklüziv təhsili həyata keçirməsi üçün atmalı olduğu addımların yaddaş siyahısı

√ Bütün hökumət idarələrinin üzərinə inklüzivliyin təmin olunması istiqamətində tədbirlər görməklə bağlı öhdəliyin qoyulması

√ Ayrı-seçkiliyə son qoymaq və inklüziv təhsil hüququna təminat vermək üçün qanunvericilik və siyasət sənədlərinin qəbul edilməsi

√ İnklüziv təhsilin tətbiqi üçün tədbirlər planı və müvafiq icra qrafikinin hazırlanması

√ İnklüzivliyə keçidin baş tuta bilməsi üçün maliyyə vəsaitləri və resursların ayrılması

√ Məlumatların toplanması və irəliləyişin ölçülməsi

√ Əlilliyi olan uşaqlar üçün nəzərdə tutulan müəssisələrə son qoyulması

√ Erkən uşaqlıq dövrü üzrə qayğı və təhsilin təmin edilməsi

√ Müəllimlərin inklüziv təhsil sahəsində hazırlığının təmin edilməsi

√ İnklüziv imtahan və qiymətləndirmənin tətbiq edilməsi

√ Şikayət mexanizmlərinin yaradılması

Dövlətlər tam inklüziv təhsil sisteminə nail olmaq üçün mümkün qədər sürətlə səy göstərməlidir. Buna **"tədricən reallaşdırma"** deyilir. Onlar əsaslı səbəb olmadan bu prosesi ləngidən və ya baş verməsinin qarşısını alan heç bir addım atmamalıdır.

Hər şeyin birdən əldə olunması mümkün olmasa da, Dövlətlər müəyyən məsələlərlə bağlı dərhal hərəkətə keçə bilərlər:

- Bütün uşaqlar üçün pulsuz, icbari ibtidai təhsilin təmin olunması
- Ayrı-seçkiliyə yol verilməməsi: ayrı-seçkiliyin əlilliyi olan şəxslərin təhsil almasına imkan verməyən hər hansı formalarını aradan qaldırmaq
- Ağlabatan uyğunlaşdırma: fərdi ehtiyacların qarşılanması üçün uyğunlaşdırmaların edilməsi

## İnklüziv təhsillə bağlı daha ətraflı məlumat üçün mənbələr:

1. İnklüziv təhsil hüququ haqqında 4 saylı Ümumi Şərh. Buradan əldə edə bilərsiniz: http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?sumbolno=CRPD/C/GC/4&Lang=en. Sənəd ingilis, fransız, ispan, rus, çin və ərəb dillərində mövcuddur, Word və PDF formatlarında əldə oluna bilər.

2. UNİCEF inklüziv təhsilin tətbiqində təhsil nazirliklərinə dəstək götürmək üçün resurslar hazırlayıb: UNİCEF-in Avropa və Mərkəzi Asiya Nümayəndəliyinin İnklüziv Təhsil Portalı - http://www.inclusive-education.org/basic-page/inclusive-education-booklets-and-webinars

3. "The World of Inclusion" veb-saytı inklüziv təhsillə bağlı çoxlu sayda resurslar təqdim edir: http://wordoflinclusion.com/resources/

